**Britaniyalı nazir: COP29-da iştirak etmək böyük bir imtiyazdır**

Britaniyanın iqlim naziri olaraq ilk dəfə COP29-da iştirak etmək mənim üçün böyük bir imtiyazdır. İndi hərəkət etmək daha vacibdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının beynəlxalq enerji və iqlim üzrə naziri Keri Makkarti özünün "X" sosial media şəbəkəsində paylaşıb.

Nazir, həmçinin son günlər İspaniyada baş verən faciəvi hadisələrin iqlim dəyişikliyinin təsirlərini bir daha göstərdiyini vurğulayıb və bu məsələnin Birləşmiş Krallığın milli maraqları üçün xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

**AZƏRTAC**
**2024, 14 noyabr**